

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 47 (21.199)

7 mart 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Babək rayonunun Qoşadizə kəndində quruculuq işləri aparılmışdır

Muxtar respublikada kəndlərin infrastrukturunu səciyyələndirən əsas cəhətlərdən biri də yeni sosial obyektlərin inşasıdır. Əhalinin rahat yaşayışının təmin olunmasına hesablanmış bu tədbirlər son illər geniş vüsət alıb. Davamlı inkişaf yoluna qədəm qoyan Babək rayonunun kəndlərində də geniş quruculuq işləri aparılır. Bu kəndlərdən biri də Qoşadizədir.

Martın 6-da Qoşadizə kəndində yeni tikilən sosial obyektlərin açılışı olmuşdur.

## Naxçıvan Muxtar Respublikasında qadınların bir qrupunun təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının ictimai və mədəni həyatında səmərəli fəaliyyətlərinə görə:

Əzimova Sara Nurəddin qızı

Sultanova Mehriban Paşa qızı – **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı;

Babayeva Təhminə Adil qızı

İbrahimova Ayidə Vahid qızı

Rüstəmova Yeganə Qabil qızı – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 mart 2015-ci il*

## Kənd məktəbi üçün yeni bina tikilib

Təhsilin inkişafında vacib amillərdən biri də müasir infrastrukturun yaradılmasıdır. Xüsusilə yeni texnologiyaların tədrisdə tətbiqi məktəblərdə dərslərin daha səmərəli təşkilinə, dünyagörüşlü və savadlı gənclərin yetişdirilməsinə imkan verir. Son illər muxtar respublikada ümumtəhsil məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər də bu məqsədə xidmət edir.

Martın 6-da Qoşadizə kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev çıxış edərək demişdir ki, son illər Babək rayonunda abadlıq-quruculuq işləri geniş vüsət alıb. Ötən il Babək qəsəbəsində rayon Mərkəzi Xəstəxanası, uşaq bağçası və rayon Tarix-Diyarşünaslıq Muzeyi, Cəhri, Qahab, Naxışnərgiz, Güznüt kəndlərində müasir sosial obyektlər tikilərək istifadəyə verilmiş, 25,6 kilometrlik Hacıvar-Vayxır-Sirab, 14,5 kilometrlik Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolları yenidən qurulmuş, içməli su və kanalizasiya sistemlərinin çəkilişi davam etdirilmişdir. Hazırda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun, Nehrəm kənd 2 nömrəli tam orta məktəbi üçün yeni binanın tikintisi davam etdirilir. Bu gün isə Qoşadizə kəndində yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilir. Həyata keçirilən bu tədbirlər sakinlərin rahatlığının təmin olunmasına və yaşayış məntəqələrinin kompleks inkişafına xidmət edir. İcra başçısı yaradılan şəraitə görə rayon ictimaiyyəti adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qoşadizə kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: "Ölkəmizdə məktəb işi ümumxalq, ümumdövlət işinə çevrilmişdir. Bu da ötən əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf strategiyasının müstəqillik dövründə uğurla davam etdirilməsi nəticəsində mümkün olmuşdur. Artıq ölkəmiz inkişaf etmiş dünya dövlətləri sırasında öz layiqli yerini tutmuş, xalqımız inkişaf etmiş xalqlar sırasına yüksəlmişdir. Ulu öndərimiz deyirdi ki, ***"Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Bilik səviyyəsinə nail olmaq üçünsə təhsil ardıcıl surətdə inkişaf etməlidir".*** Bu fikirdə böyük həqiqət vardır. O ölkə inkişaf etmiş ölkə hesab olunur ki, orada təhsilə yüksək qiymət verilir, insanların bilik səviyyələri artırılır. Təhsilin səviyyəsini yüksəltmək üçünsə müəllimə, məktəb işinə dövlət qayğısı göstərilməlidir. Bu gün ölkəmizdə müəllim əməyinə yüksək qiymət verilir, yeni məktəb binaları tikilir, təhsil müəssisələri müasir avadanlıqlarla təmin olunur".

Ali Məclisin Sədri demişdir: "Ölkəmizdə gənc nəslin yaxşı təhsil alması, peşə sahibi olması üçün də müvafiq tədbirlər görülür. Bu məqsədlə təhsilin orta, peşə, orta ixtisas və ali təhsil pillələri müəyyənləşdirilmişdir. Həmçinin gənclərin xarici ölkələrdə ali təhsil almaları üçün də hərtərəfli şərait yaradılmışdır. Belə ki, orta məktəbdə yaxşı oxuyan, yüksək balla ali məktəblərə qəbul olunan gənclər dövlətimiz tərəfindən xarici ölkələrdə ali təhsil almağa göndərilir. Bütün bunlar da ölkəmizin gələcəyinə hesablanmış tədbirlərdir. Çünki məktəblərdə təhsil alan gənclər müstəqil Azərbaycanın gələcək təminatçılarıdır. Ona görə də gənclər üzərlərinə düşən bu məsuliyyəti dərk edərək yaxşı təhsil almalı, vətənpərvər olmalı, özlərini gələcəyə hazırlamalıdırlar. Müəllimlər isə yaradılan şəraitdən düzgün istifadə etməli, təhsilli, dünyagörüşlü və vətənpərvər gənclər yetişdirməlidirlər".

"Vətənpərvərlik və təhsilə münasibət ailədən başlayır və məktəbdə formalaşır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu işdə valideynlərin üzərinə böyük vəzifələr düşür. Vətənpərvərlik hissləri hər bir uşağa ailədə öyrədilməli, məktəblərdə isə bu iş daha da təkmilləşdirilməlidir. Bu mənada ailə-məktəb birliyi ölkəmizin gələcəyinə xidmət edir. Bunların yerinə yetirilməsi üçün dövlətimiz tərəfindən lazım olan şərait yaradılmışdır. Ölkəmizdə sabitlik, iqtisadi inkişaf, məktəblərdə isə müasir tədris şəraiti mövcuddur. Bu da gənc nəslin vətənpərvər və savadlı böyüdülməsində başlıca şərtdir.



Qeyd olunmuşdur ki, Qoşadizə kənd tam orta məktəbində tədris düzgün qurulmuşdur. Kollektiv üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Şagird-müəllim münasibətlərində tələbkarlıq vardır. Ali və orta ixtisas məktəblərinə qəbulun nəticələri bunu bir daha təsdiq edir.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmiş, onlara gələcək tədrisdə uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra binaya baxış olmuşdur.

Bildirilmişdir ki, 360 şagird yerlik məktəbdə müasir tədris vasitələri quraşdırılmışdır. Binada 4-ü elektron lövhəli olmaqla, 20 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter və 2 şahmat otağı, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.





Muxtar respublikada gənclərin kitabxanaya cəlbi və mütaliə vərdişlərinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Ümumtəhsil məktəblərində müasir kitabxanalar istifadəyə verilir, kitabxana işi daha da təkmilləşdirilir. Qoşadizə kənd tam orta məktəbinin kitabxana fondunda da 6 min 715 kitab vardır.

Kompüter otaqlarında 38 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur. Həmçinin ayrı-ayrı laboratoriyalarda quraşdırılan elektron tədris avadanlıqları, istifadəyə verilən elektron lövhəli siniflər müasir tədris metodlarının tətbiqinə geniş imkanlar açır.

Ali Məclisin Sədri ümumtəhsil məktəblərində kitabxana işinin təşkilinə ciddi diqqət yetirilməsi, eləcə də kimya, biologiya və fizika müəllimlərinin ixtisasartırma kurslarına göndərilməsi barədə tapşırıqlar vermişdir.

Muxtar respublikada təhsilin informasiyalaşdırılması və müasir texnologiyalarla təminatı sahəsində görülən işlər elektron tədrisin təşkilinə geniş imkanlar açmışdır. Elektron lövhəli sinfə baxış zamanı muxtar respublikanın 210 təhsil müəssisəsi ilə Naxçıvan Dövlət Xalça Muzeyi arasında interaktiv dərs nümayiş olunmuşdur.

Sonra Ali Məclisin Sədri birinci sinif şagirdlərinin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu tədris ilində məktəbin birinci siniflərinə 23 şagird qəbul olunmuşdur. Müəllimlər dərslərin şagirdlərin qavrayacağı formada tədrisinə üstünlük verir, onlarla fərdi söhbətlər aparırlar.

Şahmatın tədrisi uşaqların əqli inkişafına və asudə vaxtlarının təşkilinə köməklik göstərir. Məktəbin şahmat otaqları bütün lazımi vasitələrlə təchiz olunmuşdur.

Muxtar respublikada şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə, hərb sənətinə marağın artırılmasına xüsusi diqqət yetirilir. Bu istiqamətdə işlər idmanın inkişafı ilə paralel aparıldıqda isə daha effektiv nəticələr verir. Qoşadizə kənd tam orta məktəbində müasir hərbi kabinə, geniş idman zalı və açıq idman qurğularının istifadəyə verilməsi də məhz bu məqsədə xidmət edir.

İdman zalı ilə tanışlıq zamanı Ali Məclisin Sədri gənclərin fiziki inkişafının vacibliyini vurğulamış, bədən tərbiyəsi və

*Ardı 2-ci səhifədə*

idman dərslərinə xüsusi diqqət yetirilməsi, gənclərin idmana marağının artırılması barədə tapşırıqlar vermişdir.

Məktəb binasında yaradılan şəraitlə tanışlıqdan sonra Ali Məclisin Sədri müəllimlərlə görüşmüşdür.

Söhbət zamanı Ali Məclisin Sədri demişdir ki, Qoşadizə kənd tam orta məktəbi tam müasir tələblərə cavab verir. Bu da təhsilin səviyyəsini yüksəltməyi, nailiyyətləri daha da artırmağı zəruri edir. Müasir tədris avadanlıqlarından istifadə keçilən dərslərin daha yaxşı qavranılmasına imkan verəcəkdir. Müəllimlər daim üzərlərində işləməli, tədrisdə yeni texnologiyaların imkanlarından geniş istifadə olunmalı, nailiyyətlər artırılmalıdır.

Müəllim Şəmsiyyə Əsgərova kollektiv adından minnətdarlıq edərək demişdir ki, hər cür şəraiti olan məktəb binasının istifadəyə verilməsi gənc nəslə göstərilən qayğının daha bir ifadəsidir. Bu şəraitdən səmərəli istifadə etmək, vətənpərvər və bilikli gənclər yetişdirmək isə pedaqoji kollektivin qarşısında duran əsas vəzifələrdir. Müəllimlər bundan sonra da məktəbdə tədrisin səviyyəsinin yüksəldilməsi istiqamətində səylə çalışacaqlar.

Məktəbin həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.



## Qoşadizədə kənd mərkəzi istifadəyə verilmişdir






Muxtar respublikada sosial sahənin inkişafına hesablanmış quruculuq tədbirləri sırasında kənd mərkəzlərinin inşasına mühüm əhəmiyyət verilir, dövlət qurumlarının fəaliyyətinin vahid mərkəzdən təşkili təmin olunur. Kənd yaşayış məntəqələrində bu cür idarəetmə mexanizminin formalaşdırılması bilavasitə sakinlərin rahatlığına xidmət edir.

Martın 6-da Qoşadizə Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, ikimərtəbəli binada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə və mədəniyyət evləri, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana və 60 yerlik iclas zalı yerləşir.

Rabitə evində poçt şöbəsi yaradılmış və 384 nömrəlik yeni nəsil ATS quraşdırılmışdır. Sakinlər yeni sistem vasitəsilə ən müasir rabitə xidmətlərindən – genişzolaqlı internet, IP televiziya və digər elektron xidmətlərdən istifadə edəcəklər. Həmçinin poçt şöbəsində yaradılan şərait əhaliyə nümunəvi xidmət göstərməyə və kommunal xidmət haqlarının



yığılmasına imkan verəcəkdir.

Binada Qoşadizə kənd bələdiyyəsi və inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün də müasir şərait yaradılmışdır.

Mərkəzdə kənd kitabxanasının və mədəniyyət evinin fəaliyyəti də təmin edilmişdir. Kitabxanada 7228 ədəbiyyat vardır.

Yeni Azərbaycan Partiyası Qoşadizə kənd ərazi ilk təşkilatının 62 üzvü vardır. Onlardan 24-ü gənclər, 10-u isə qadınlardır. Müasir iş otağı ərazi ilk təşkilatının daha səmərəli fəaliyyətinə imkan verəcəkdir.

Baytarlıq məntəqəsinə baxış zamanı Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, kənddə bioloji təhlükəsizliyin qorunması diqqət mərkəzində saxlanılır, mal-qaranın cins tərkibi yaxşılaşdırılır, məhsuldarlıq ilbəil artırılır. Hazırda baytarlar mövsümlə əlaqədar olaraq profilaktik tədbirlər görür, təsərrüfatlarda xəstəliklərə qarşı dezinfeksiya işləri aparırlar.

Sonra Ali Məclisin Sədri feldşer-mama məntəqəsində olmuş, kənddə səhiyyə xidmətinin təşkili ilə maraqlanmışdır.

Bildirilmişdir ki, binada feldşer-mama məntəqəsi üçün iş otaqları ayrılmış, məntəqə lazımi dərman vasitələri, ilkin tibbi yardım və peyvənd çantaları ilə təmin olunmuşdur. Tibb işçiləri əhali arasında səhiyyə maarifinin aparılmasını, gigiyenik qaydalara əməl olunmasını əsas istiqamət kimi müəyyənləşdirmişlər. Həmçinin hamilə qadınların qeydiyyata alınması, onlara patronaj xidmətin göstərilməsi, uşaqların vaxtlı-vaxtında peyvəndə cəlb olunması da diqqət mərkəzindədir.

Ali Məclisin Sədri kənd sakinlərinin sağlamlığının qorunması sahəsində bundan sonra da ardıcıl tədbirlərin görüləcəyini bildirmiş, səhiyyə xidmətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Binada fərdi istilik sistemi yaradılmış və həyəti abadlaşdırılmışdır.

## Qoşadizə kəndində yeni xidmət mərkəzi fəaliyyət göstərəcəkdir






Martın 6-da Qoşadizə kəndində xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra xidmət mərkəzi ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Mağazalarda keyfiyyətli yerli ərzaq məhsullarının, gündəlik tələbat mallarının, geyim dəstlərinin və təsərrüfat mallarının satışı təşkil olunmuşdur. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra sakinlərlə görüş olmuşdur.

Ali Məclisin Sədri demişdir ki, dövlətimiz tərəfindən sakinlərin rahat yaşayışı istiqamətində ardıcıl tədbirlər görülür, yaşayış məntəqələri müasirləşdirilir. Qoşadizə kəndi də öz simasını tamamilə dəyişmişdir. İstifadəyə verilən yeni sosial obyektlər, yaradılan şərait əhalinin rahat yaşayışına hesablanmışdır. Qoşadizə kəndinin bərəkətli və məhsuldar torpaqları, zəhmətkeş insanları vardır. İnsanlar əkinçiliklə, maldarlıqla məşğul olurlar. Yaradılan şərait gələcəkdə də bu işlərin davam etdirilməsinə, əhalinin rahat və firavan yaşayışına, məskunlaşmanın artmasına səbəb olacaqdır. Sakinlər göstərilən dövlət qayğısından layiqincə bəhrələnməli, kəndin abadlaşmasında bundan sonra da yaxından iştirak etməlidirlər.

Ali Məclisin Sədri kəndin kompleks inkişafını xalq-dövlət birliyinin nəticəsi kimi

*Ardı 3-cü səhifədə*

dəyərləndirmiş, qarşıdan gələn Novruz bayramı münasibətilə sakinləri təbrik etmişdir.

Kənd sakini, ziyalı Zeyqəm Məhərrəmov minnətdarlıq edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi ölkəmizi inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Bu inkişaf, tərəqqi Naxçıvan Muxtar Respublikasının da bütün yaşayış məntəqələrini əhatə etmişdir. Şəhər, qəsəbə və kəndlərdə böyük quruculuq işləri aparılır. Qoşadizə kəndinin müasir görkəm alması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Bu gün kənd kompleks şəkildə abadlaşmışdır. İnsanlar rahat yoldan, fasiləsiz elektrik enerjisindən, təbii qazdan, rabitə xidmətindən istifadə edirlər. Gənc nəslin hərtərəfli böyüməsinə xidmət edən müasir məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi isə sakinlər üçün ən böyük hədiyyədir. İnsanlar bütün bu işləri xalqa, Vətənə, dövlətçiliyə sədaqətlə xidmətin nəticəsi hesab edir, ölkəmizin inkişafına öz töhfələrini verməyə çalışırlar.

* * *

Kənddə 1200 metr yola asfalt örtük salınmış, 482 metr uzunluğunda beton kanal çəkilmiş, 16 su keçidi tikilmişdir. Sakinlərin kommunal şəraiti də yaxşılaşdırılmış, 2800 metr fiber-optik, 2000 metr yerüstü və 1500 metr yeraltı rabitə xətti çəkilmiş, 450 metr elektrik xətti yenilənmiş, müxtəlifgüclü transformator yarımstansiyalarında əsaslı təmir işləri aparılmışdır. Həmçinin yeni tikililərə 238 metr məsafədə qaz, 220 metr içməli su xətləri çəkilmiş, yaşıllıqların suvarılması üçün 2250 metr məsafədə damcılı suvarma şəbəkəsi qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*8 Mart Beynəlxalq Qadınlar Günüdür*

## Muxtar respublikada dövlət qadın siyasəti uğurla həyata keçirilir

***1910-cu ildə Danimarkanın paytaxtı Kopenhagendə keçirilən beynəlxalq konfransda martın 8-i "Beynəlxalq Qadınlar Günü" kimi təsis edilmişdir. Bu gün dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda bayram kimi qeyd olunur.***

Azərbaycan qadını tarixboyu cəmiyyətin aparıcı qüvvəsi kimi xalqımızın ictimai-siyasi həyatında fəal iştirak etmiş, öz iradəsi, mərdliyi, saflığı, sədaqəti ilə seçilmiş, adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi müasir Azərbaycan qadınları öz dərin zəkaları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edir, müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının inkişafına öz töhfələrini verirlər.

Azərbaycanda dövlət qadın siyasətinin həyata keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Hələ ötən əsrin 70-80-ci illərində ölkəmizə rəhbərliyi dövründə qadınların ictimai fəallığının artırılması üçün mühüm addımlar atan ulu öndər 1993-cü ildə ölkəmizdə ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra bu xətti yeni məzmunda, müstəqillik dövrünün tələblərinə uyğun davam etdirmişdir. Bu dövrdən başlayaraq qadın hüquqlarının müdafiəsi, gender bərabərliyi, qadınların ailənin rifahı və cəmiyyətin inkişafına müsbət təsiri, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunması və problemlərinin həlli istiqamətində ardıcıl işlər görülmüşdür. Ümummilli liderimiz Azərbaycan qadınına yüksək qiymət verərək demişdir: ***"Zahiri gözəlliyi ilə daxili aləminin paklığının vəhdət təşkil etdiyi, öz səbri, təmkini ilə səciyyələnən Azərbaycan qadını dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Onun şəninə dastanlar qoşulmuş, ona dahilər və qəhrəmanlar anası deyilmişdir. Tariximizin keşməkeşli səhifələrində Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir. İftixar hissi ilə qeyd edilməlidir ki, qadınlarımız öz əcdadlarının yolunu bu gün də davam etdirərək müasir dünya qadınları arasında özlərinə məxsus yer tuturlar".***

Dahi şəxsiyyətin "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" 1998-ci il 14 yanvar tarixli Sərəncamı, "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci il 6 mart tarixli Fərmanı ölkəmizin siyasi, iqtisadi və mədəni həyatında qadınların rolunu artırmaq məqsədilə imzalanmış mühüm dövlət sənədləridir. 1998-ci ildə müstəqil Azərbaycan qadınlarının ilk qurultayının keçirilməsi isə ölkəmizdə qadınlara verilən yüksək dəyərin daha bir ifadəsi idi.

Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoymuşdur. Artıq Azərbaycan Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur və BMT-nin qadın məsələləri üzrə komissiyasının tamhüquqlu üzvüdür. Dövlət başçısının hər il 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbriki qadınlara diqqətin və ehtiramın təcəssümüdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Beynəlxalq Qadınlar Günü münasibətilə bu il martın 5-də Azərbaycan qadınlarına təbrikində deyilir: ***"Siz Azərbaycan qadınlarının müasir cəmiyyətimizdə tutduğunuz mövqe, bərabər hüquqlar və imkanlar üçün göstərdiyiniz səylər, həmçinin mötəbər qurumlarda təmsil olunmağınız fəxr etdiyimiz mühüm tarixi nailiyyətlərdir. Adınız ülviyyətin, zərifliyin və gözəlliyin rəmzi kimi ölkəmizdə həmişə uca tutulmuşdur. Qədim keçmişimizin hər bir səhifəsi müdrikliyinizin, fədakarlıq və qəhrəmanlığınızın parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik mədəni-mənəvi dəyərlərin, doğma ana dilinin və adət-ənənələrin bu günlərədək layiqincə yaşadılması sizin misilsiz xidmətinizdir".***

Bu gün Azərbaycanda qadınlarla bağlı iş dövlət siyasətinin bütün sahələrində öz əksini tapır, qadınlar ən yüksək diqqət və qayğı ilə əhatə olunurlar. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Ölkə başçısının qanunvericilik təşəbbüsü əsasında 2006-cı il oktyabrın 10-da "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması, 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gender bərabərliyi ilə bağlı müddəaların yer alması qadınların cəmiyyət həyatında fəal iştirakının təmin olunmasında, onların hüquq və vəzifələrinin qorunmasında, sosial problemlərinin həllində mühüm əhəmiyyətə malik olmuşdur.

Naxçıvan Muxtar Respublikasında da qadınların cəmiyyətin ictimai-siyasi həyatında rolu getdikcə artır. Bu, bir tərəfdən Naxçıvanda qadın fəallığı sahəsində çoxəsrlik tarixə söykənən zəngin ənənələr, digər tərəfdən isə muxtar respublikada həyata keçirilən dövlət qadın siyasəti ilə bağlıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının müdafiə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin daha bir göstəricisidir.

Muxtar respublikada əhalinin məşğulluğu ilə bağlı qəbul edilən dövlət proqramlarında qadınların da işlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Qətiyyətlə demək olar ki, artıq muxtar respublikada təhsil, səhiyyə, mədəniyyət sahələri ilə yanaşı, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında da qadınlar təmsil olunurlar. Təkcə bir faktı qeyd edək ki, hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatından 6-sı qadındır. Son bələdiyyə seçkilərində iştirak edən qadınların sayı bir öncəki seçkilərə görə 36 nəfər artaraq 294 nəfərə çatmışdır. Hazırda muxtar respublikada 13 qadın bələdiyyə sədri vəzifəsində çalışır.

Muxtar respublikada həyata keçirilən qadın siyasətinin əsas istiqamətlərindən biri də qadınların ictimai fəallığını artırmaqdan ibarətdir. Bununla əlaqədar qadınlar mütəmadi olaraq öz hüquqları barədə məlumatlandırılır, ailə dəyərlərinin qorunmasındakı rolu, sağlamlıqlarının mühafizəsi kimi vacib məsələlərin həllinə yönəlmiş maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin ahıl, tənha, xüsusi qayğıya ehtiyacı olan qadınların həyat şəraitlərinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirlər görülür, onların məişət və sosial ehtiyacları ödənilir. Muxtar respublika əhalisinin yarıdan çoxunu təşkil edən qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılmasına, qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsinə, qadınların peşə hazırlığına və əlavə təhsilinə yönəldilmiş tədbirlər də diqqət mərkəzində saxlanılır, sağlamlıq imkanları məhdud olan qadınlar müvafiq peşə kurslarına cəlb edilir, istedadlı qadınların əl işlərinin satış-sərgiləri təşkil olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycanda qadın adının həmişə uca tutulduğunu, qadına böyük ehtiram göstərildiyini bildirərək demişdir: ***"Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır. Qədim rəvayət və dastanlarımızda müdrik və gözəl qadın obrazlarının bədii təsviri verilmişdir. Azərbaycan tarixinin bütün dövrlərində böyük fitri istedada, dərin zəkaya, möhkəm iradəyə malik şair, hökmdar, döyüşçü qadınlar fəaliyyət göstərmiş, elm xadimləri olan qadınlarımız Azərbaycan elmini dünyaya tanıtmışlar. Eyni zamanda Azərbaycan qadını dünyaya böyük siyasət və dövlət xadimlərini, tanınmış elm və sənət adamlarını bəxş etmişdir. Bugünkü həyatımızın hər hansı bir hissəsini qadınlarsız təsəvvür etmək mümkün deyil".***

Dövlətin qayğısını daim üzərlərində hiss edən qadınlar bundan sonra da muxtar respublikanın inkişafı naminə səylə çalışacaq, gənc nəslin Azərbaycançılıq və dövlətçilik ənənələrimizə sadiqlik ruhunda tərbiyəsində fəallıq nümayiş etdirəcəklər.

***Naxçıvan Muxtar Respublikası***
***Ailə, Qadın və Uşaq Problemləri***
***üzrə Dövlət Komitəsinin***
***mətbuat xidməti***



*10 mart Milli Teatr Günüdür*

## Zəngin mədəni irsimizi yaşadan Naxçıvan teatrı mütərəqqi ideyaların carçısı olmuşdur

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında "Milli Teatr Günü"nün təsis edilməsi haqqında" 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir.***

Teatr real həyat hadisələrini obrazların dili ilə tamaşaçıya çatdırmaqla həyatda və cəmiyyətdə baş verən hadisələri görmək, duymaq və onları dərk etmək üçün qarşılıqlı münasibətlərin inikasını yaradır. Söz sənəti, rəssamlıq, musiqi, rəqs və digər növlərin sintezindən yaranan teatr tamaşası dramaturqun, rejissorun, rəssamın, bəstəkarın, aktyorun və digər sənət adamlarının birgə əməyinin bəhrəsidir.

Tarixi çox qədimlərdən başlayan Azərbaycanda teatr sənətinin kökləri xalqımızın həyat tərzi, məişəti, bayram, şənlik və toy ənənələri, dünyagörüşü ilə bağlıdır. Qobustan, Gəmiqaya rəsmləri bunu bir daha təsdiq edir. Xalqımızın yaratdığı xalq oyunları, xalq komediyaları, meydan və qaravəlli tamaşaları, bayram məzhəkələri folklorumuzun bir parçası olmaqla yanaşı, həm də teatr sənətimizin ilk nümunələridir. Qədim tarixə malik "Sayaçı", "Novruz", "Kosa-kosa", "Kosa oyunu", "Maral oyunu", "Zopu-zopu", "Kilimarası", "Gəvsəç" kimi nümunələrdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə, hərəkətə, bədii surətə və personaja da rast gəlinir. Min illər boyu xalqımız bu mərasimləri, el-oba oyunlarını açıq havada, şəhər meydanında, kənd içində, bazarda və başqa yerlərdə keçirmişdir. Səhnəçə, hovuzüstü, həngə, nəzərgah, nümayişgah və başqa deyimlərlə adlandırılan bu yerlərdə xalqımız öz səhnə bacarıqlarını nümayiş etdirmişdir. Xalqın yaradıcılıq təfəkkürünün imkanlarını göstərən, folklorumuzun zənginliyini ortaya qoyan bu tamaşalar peşəkar teatrın yaranmasına qədər böyük bir inkişaf yolu keçmişdir.

Şərqdə ilk peşəkar teatrın Azərbaycanda yaranması mədəniyyət tariximizin parlaq səhifəsidir. Əsası 1873-cü ilin mart ayında Mirzə Fətəli Axundovun "Lənkəran xanının vəziri" tamaşası ilə qoyulmuş Azərbaycan teatrının keşməkeşli tarixi vardır. Milli teatrın yaradılmasında Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlovun xüsusi xidmətləri olmuşdur. Azərbaycan dramaturgiyasının inkişafında son dərəcə mühüm rol oynayan, mədəni quruculuq sahəsində, eləcə də teatr sənətinin təşəkkülündə böyük xidmətlər göstərən ədəbiyyat və incəsənət xadimləri, aktyor və rejissorlar öz yaradıcılıqları ilə milli teatrın inkişafında, milli və dünya dramaturqlarının klassik irsinə düzgün münasibətin müəyyənləşməsində əvəzsiz xidmətlər göstərmişlər.

Teatra, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara, sözün əsl mənasında, hamilik edən ümummilli lider Heydər Əliyevin səyi nəticəsində ötən əsrin 70-ci illərində milli teatr sənətimiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Bu dövrdə milli teatrımız əsl inkişaf və intibaha qovuşmuşdur. Ümummilli liderimiz xalqımızın zəngin yaradıcılıq ənənələrinə malik olan teatr sənətinə yüksək qiymət verərək demişdir: ***"Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha güclüdür. Bunlar xalqa daim sənət və xüsusən incəsənət vasitəsilə aşılanmışdır. Ədəbiyyatın insanlara böyük təsiri vardır. Ancaq bir var ki, insan hər hansı bir əsəri özü oxusun, bir də var ki, onu canlı olaraq səhnədə görsün. Ona görə də teatrın həyatımızda rolu böyükdür. Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada çalışanlar fədakardırlar".***

Mədəniyyət tariximizin parlaq səhifələrini şərəflə yazan milli teatrımız ulu öndərimizin yenidən siyasi hakimiyyətə qayıdışından sonra öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Bu dövrdən başlayaraq teatrlara diqqət və qayğı artırılmış, aktyor və rejissorların səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Yaradıcılıq şəraitinin daha da yaxşılaşdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilmiş, teatr kollektivlərinin əməkhaqları dəfələrlə artırılmış, aktyorların, dramaturqların, rejissorların yubileyləri qeyd olunmuş, Azərbaycan teatrının beynəlxalq əlaqələri genişlənmişdir.

Azərbaycanda teatrların diqqət və qayğı ilə əhatə olunması siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin də diqqət mərkəzindədir. Bu gün teatr binaları yenidən qurulur, təmir edilir, bu sahədə ardıcıl islahatlar həyata keçirilir. 2006-cı ildə qəbul olunmuş "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu, ölkə başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 19 fevral tarixli Sərəncamı, həmçinin təsdiq olunmuş "Azərbaycan teatrı 2009-2019-cu

*Ardı 4-cü səhifədə*

illərdə Dövlət Proqramı" milli teatrımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, rejissor və aktyorların yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm dövlət sənədləridir.

Teatrlarımıza diqqət və qayğını muxtar respublikamızda fəaliyyət göstərən mədənyyət ocaqlarının timsalında da aydın görmək mümkündür. Son 20 ildə muxtar respublikada teatr sənətinin davamlı inkişafının təmin edilməsi, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu gün muxtar respublikada Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə yanaşı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası uğurla fəaliyyət göstərir.

2012-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olmaqla bərabər, həm də bu sənətə diqqət və qayğının real ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov teatr binasının istifadəyə verilməsi mərasimində kollektivin qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Bu gün istifadəyə verilən bina teatrın həyatında yeni dövrün başlanğıcıdır. Ona görə də kollektiv Yaxın Şərqin ən gözəl memarlıq abidələrindən biri olan teatr binasında bundan sonra da düşündürücü, dövrün tələbləri ilə səsləşən əsərlər səhnələşdirərək insanların mədəni səviyyəsinin yüksəldilməsinə xidmət etməli, teatrda yeni ənənələr başlamalı, teatr tamaşaçı hörməti qazanmalıdır".***

Müstəqillik illərində Naxçıvan teatrının fəaliyyəti yeni yaradıcılıq axtarışları və qastrol səfərləri ilə zəngin olmuşdur. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu illərdə Türkiyənin Ankara, İstanbul, Bursa, Ərzurum, İğdır, Dənizli, Tarsus, İran İslam Respublikasının Təbriz, Maku, Urmiya şəhərlərinə səfərlər etmiş, göstərdiyi tamaşalarla qonşu və dost ölkələrin sənətsevərlərinin rəğbətini qazanmışdır. Müxtəlif vaxtlarda səhnəyə qoyulan "Topal Teymur", "İblis", "Səyavuş", "Şeyx Sənan", "Pompeyin Qafqaza yürüşü", "Atabəylər", "Atillanın atlıları", "Nadir şah", "Dirilən adam", "Fərhad və Şirin", "Koroğlunun Çənlibelə qayıdışı", "Qönçəbəyim nəğməsi", "Mirzə Fətəli", "Manqurt", "Ağa Məhəmməd şah Qacar", "Araz sahilində doğan Günəş", "Yahya bəy Dilqəm" kimi uğurlu tamaşalar onu göstərir ki, Naxçıvan teatrı müasir dövrümüzdən bəhs edən tamaşalarla bərabər, tarixi mövzuda olan tamaşalara da xüsusi önəm verir.

Bu il də Naxçıvan teatrının kollektivi yeni tamaşalar üzərində işləyir. Hazırda teatrda görkəmli yazıçı və dövlət xadimi Nəriman Nərimanovun "Nadanlıq" pyesinin məşqləri gedir. Bu tamaşadan sonra teatrın kollektivi Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İftixar Piriyevin ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi ikihissəli tarixi dram olan "Qurtuluş dastanı" əsərini səhnələşdirməyi planlaşdırır. Tamaşada ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyi uğrunda apardığı gərgin mübarizə və ölkəmizi ağır vəziyyətdən xilas etməsindən bəhs olunur. İlin sonunda isə teatr yazıçı-dramaturq Əli Əmirlinin "Varlı qadın" komediyasını tamaşaçılara təqdim edəcəkdir.

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı da yüksək qayğı ilə əhatə olunmuş, 2004-cü ildə yeni bina ilə təmin edilmişdir. Teatrın qonşu Türkiyəyə və İran İslam Respublikasına səfərləri ənənəyə çevrilməklə bu sahədə beynəlxalq əlaqələrin inkişafına təkan vermişdir. Kukla teatrı 2009-cu ildə Türkiyə Respublikasının Bursa şəhərində keçirilən 13-cü Uluslararası Qaragöz Kölgə və Kukla Oyunları Festivalında, 2014-cü ildə isə Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində keçirilən "Kuklaların fantaziyası" IV Beynəlxalq Kukla Teatrları Festivalında iştirak etmiş və diplomlara layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı Azərbaycanda fəaliyyət göstərən iki uşaq teatrından biridir. Teatr müxtəlif illərdə hazırladığı "Cəsur dovşan", "Yaxşılıq itmir", "Meşə əhvalatı", "Fəridin yuxusu", "İgidlik imtahanı", "Bu dünya bir nağıldır", "Ata məhəbbəti", "İki qardaş", "Daşdəmirin nağılı" və başqa tamaşalarla balaca tamaşaçıların qəlbinə yol tapmağı bacarmışdır. Həmçinin muxtar respublikanın xalq teatrları tərəfindən hazırlanmış "Solğun çiçəklər", "Ezop", "Ana", "Şeyx Rəhmətullah", "Beş manatlıq gəlin", "Rəhmə gəl, mələyim", "Məhəbbət nişanəsi", "Evlikən subay", "Qısqanc ər", "Durna", "İkinci səs" və başqa tamaşalar da ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Son illər Naxçıvan teatrının tədqiqi ilə bağlı da mühüm işlər görülmüş, bir sıra monoqrafiya və kitablar nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan teatrının salnaməsi" bu baxımdan yüksək qiymətə layiqdir. Kitabda ilk dəfə olaraq Naxçıvan teatrı ilə bağlı çoxsaylı sənədlər, fotoşəkillər və digər məlumatlar öz əksini tapmışdır.

Muxtar respublikanın teatr kollektivlərinin əməyi də dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, səmərəli fəaliyyətlərinə görə yaradıcı heyət Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülmüşdür.

Xalqımızın qədim və zəngin mədəniyyətini yaşatmaq, vətənpərvərlik duyğularını gücləndirmək, yüksək səviyyəli estetik-mənəvi təsirə malik olan əsərləri səhnəyə gətirmək teatrlarımızın bu gün qarşısında duran əsas vəzifələrdir. Ötən illərdə olduğu kimi, bundan sonra da Naxçıvan teatrları dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət edən yüksək sənət əsərlərini səhnələşdirəcək, milli dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması, eləcə də tariximizin yaşadılması sahəsində şərəfli vəzifəni layiqincə yerinə yetirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Ermənilərin yarısı erməni deyil...

### *Türk araşdırmaçı: "Ermənilərin 49 faizi Türk-Qıpçaq köklüdür"*



"Ermənilərin yarıdan çoxu türkdür". "Lent.az"ın Türkiyə mətbuatına istinadən məlumatına görə, genetika mütəxəssisi professor Osman Çataloluk belə nəticəyə gəlib.

"Ermənilərin 49 faizi Türk-Qıpçaq köklüdür. Bu haldan narahat olan erməni hökuməti genetik araşdırmanı gizli saxlayıb. Çataloluk bunun daha əvvəldən bilinən bir gerçəklik olduğunu, lakin ermənilərin bunu uzun müddətdir ki, rədd etdiklərini deyib. Qıpçaq əsilli çıxanlar isə özəlliklə haylardır. Genetik araşdırmalarda Qaziantepdən başlayaraq Sivas, Amasya, Tokat yolu ilə Samsuna enən, buradan da Qaradəniz sahili boyunca Gürcüstan və Ermənistana uzanan xətdə genetik olaraq yüzlərlə R1b-M269 mutasiyasına rast gəlinib. Bu mutasiyanın yarandığı tarix isə e.ə 4700-cü illərdir. Bu tarix Subar-Şumer müharibəsi ilə üst-üstə düşür. Şumerlərdən qaçanlar Anadoluya keçərək burada məskunlaşıblar. Bir qisim isə Qara dəniz sahillərində yerləşib.

Qıpçaqların ulu babaları da bu qrupdandır. Bu gerçək indi ortaya çıxmağa başlayıb".

Onun sözlərinə görə, bugünkü Ermənistan ərazisində tarix boyunca müxtəlif tayfalar yaşayıb. Mütəxəssis deyib ki, "Armania" sözü min illərdir ki, coğrafi ərazi kimi bilinir. Bunun üçün də "Ermənistan" adının etnik bir kökənı olmayıb və yalnızca bir coğrafi termin mənası daşıyır.

***"Ekspress" qəzeti
6 mart 2015-ci il***

## Sağlamlıq imkanları məhdud uşaqlar arasında müsabiqə

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Yazıçılar Birliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqlar arasında bədii qiraət müsabiqəsi keçirilib.***

Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil edilən müsabiqənin keçirilməsində məqsəd sağlamlıq imkanları məhdud uşaqların psixoloji vəziyyətlərinin yüksəldilməsindən və bu qrupdan olan istedadlı uşaqların üzə çıxarılmasından ibarətdir.

Tədbiri Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov açaraq tədbirin keçirilməsi məqsədindən danışıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin rəis əvəzi Fuad Səfərov, Gənclər Fondunun məsləhətçisi Qabil Vəliyev və Yazıçılar Birliyinin sədri Asim Əliyev çıxış edərək tədbirin mahiyyətindən danışıb, iştirakçılara uğurlar arzulayıblar.

Sonda münsiflər tərəfindən qaliblər müəyyən edilib. Münsiflərin qərarına əsasən, Turac Pənahlı birinci yerə layiq görülüb. Digər iki pillədə isə Fatma Babayeva və Nigar İmanova qərarlaşıblar. Nigar Quliyeva, Şübeyib Hüseynov və Həsrət Abdullayev isə həvəsləndirici mükafatlara layiq görülüblər. Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman və hədiyyələrlə təltif olunublar.

## 40-45 yaşlı əhali kütləvi dispanserizasiyadan keçiriləcək

**Son illər 40-45 yaşlı insanlarda ürəyin işemik xəstəlikləri, hipertoniya, şəkərli diabet, onkoloji və digər xəstəliklərin yaranma riski artdığından onlar arasında profilaktik müayinə tədbirlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir. Belə hallar nəzərə alınaraq muxtar respublikamızda 40-45 yaşlı əhalinin kütləvi dispanserizasiyası həyata keçiriləcəkdir.**

40-45 yaşlı əhalinin kütləvi profilaktik tibbi müayinəsini aparmaq üçün Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında və rayon mərkəzi xəstəxanalarında terapevt, cərrah, ginekoloq, stomatoloq, oftalmoloqlardan ibarət həkim briqadaları yaradılır və onların iş qrafiki tərtib edilir. Həmin qrafikə uyğun olaraq, bu il aprelin 1-dən şəhər və rayonlarda 40-45 yaşlı əhalinin kütləvi profilaktik tibbi müayinələrinə başlanılacaq, ehtiyac olan hallarda xəstələrə yüksəkixtisaslı həkimlərin, o cümlədən nevropatoloq, psixiatr, endokrinoloq, uroloq, ftiziatr, kardioloq və başqalarının konsultasiyası və laborator-diaqnostik müayinələr təşkil ediləcəkdir.

Aşkar olunan xəstələrin sayı dəqiqləşdiriləcək hər ay muxtar respublika Səhiyyə Nazirliyinə yazılı məlumat təqdim olunacaq, dispanser xəstələrin müayinə və müalicəsi işinə nəzarət daha da artırılaraq aşkar olunan ilkin xəstələrin siyahısı bölgələr üzrə dəqiqləşdiriləcəkdir.

Dispanserizasiya tədbirləri iyulun 30-da başa çatdırılacaq və müayinələrin nəticələri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində təhlil ediləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Həmyerlimiz Dubayda keçirilən beynəlxalq turnirdə qızıl medal qazanıb



2015-ci ilin 20-26 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən məhdud fiziki imkanlılar arasında VII Fazza beynəlxalq turnirində Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının yetirməsi Hüseyn Həsənov uzunluğa tullanma yarışında qızıl medala layiq görülüb. Bu qələbə onun cari ilin oktyabr ayında Qətər Əmirliyində keçiriləcək paralimpiyaçılar arasında dünya çempionatında iştirakını təmin edib.

Məlumat üçün bildirək ki, paralimpiyaçımız beynəlxalq və ümumrespublika yarışlarında bir sıra uğurlara nail olub. Belə ki, Hüseyn Həsənov 2012-ci ilin sentyabr ayında keçirilən XIV London Yay Paralimpiya Oyunlarında paralimpiyaçılar arasında uzununa tullanma yarışında 6,53 metrlik göstərici ilə üçüncü yer tutaraq bürünc medal qazanıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) şöbələri tərəfindən maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir fondun Naxçıvan şəhər şöbəsi tərəfindən keçirilib. Tədbiri şöbənin müdiri Səfər Əhmədov açaraq tədbirin əhəmiyyətindən danışıb.

Sonra DSMF Naxçıvan Şəhər Şöbəsinin əməkdaşları Asim Cəfərov, İlqar Vəliyev və Cabir Seyidov sığorta-pensiya sisteminin xüsusiyyətlərindən, sosial sığorta haqqı ödənişlərinin gələcək pensiya təminatındakı mühüm əhəmiyyətindən, elektron xidmətlərin tətbiqinin sosial müdafiə sistemində təsirinin yüksək olmasından bəhs ediblər.

Qeyd olunub ki, fond tərəfindən istifadəyə verilən "Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi" elektron xidməti sığortaedənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq mülkiyyətçiləri tərəfindən məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi prosesini asanlaşdırıb.

Diqqətə çatdırılıb ki, hazırda fond tərəfindən əhaliyə 10 növ elektron xidmət göstərilir. Ötən il muxtar respublikada avtomatlaşdırılmış pensiya təyinatı sistemi istifadəyə verilib. Yaşa görə əmək pensiyası hüququ yaranmış vətəndaş hər hansı sənəd toplamadan və vaxt itirmədən fondda yaradılan pensiya təyinatı xidmətinə (+99436 550-59-79 nömrəsinə) zəng vuraraq real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdıra bilər.

Tədbirin sonunda elektron xidmətlərin tətbiqi və istifadə qaydaları ilə əlaqədar slayd nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***İtmişdir***

Məmmədova Sahibə Zeynal qızının adına verilmiş 2350591 nömrəli əmək kitabçası itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 206